# Səyyar qəbullar

Yaşanılan ömür daima müəyyən problemlərlə dolu olur. Həyat mübarizədir və insan yaşadığı dövrdə çox çətinliklərlə qarşılaşır. Bəzən elə problemlərlə qarşılaşır ki, onların həlli tək özünün mübarizəsi ilə hasilə yetmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.


Abrıx kəndi.




Kötüklü kəndi.


Xırxatala kəndi.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin iyun ayında səyyar qəbullar Abrıx, Kötüklü və Xırxatala kəndlərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı kənd sakinləri tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

**"Qəbələ".**
**Fotolar S. Umuyevindir.**

# Milli qurtuluşdan dirçəlişə, tarixi zəfərdən böyük qayıdışa

**(Əvvəli 2-ci səhifədə).**

demişdir: " Əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək olmazdı".

Müzəffər Ali Baş Komandan İham Əliyevin hələ illər öncə qarşıya qoyduğu, müəyyən etdiyi vəzifələrdən biri işğaldan azad edildikdən sonra rayon və şəhərlərimizin yenidən qurulması, " Böyük Qayıdış" proqramının həyata keçirilməsi idi. Bu vəzifənin real olaraq həyata keçirilməsinə isə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin yenidən qurulması ilə başlanmışdı. 2016-cı ilin Aprel Qələbəsindən sonra Cocuq Mərcanlının yenidən qurulması "Böyük Qayıdışın" ilk addımı idi. Azərbaycan xalqının və ordumuzun qəhrəmanlığının nümayişi olan Aprel döyüşləri Vətən Müharibəsinin ilkin məşqi və Tarixi Zəfərə aparan yolun başlanğıcı idi.

2 aprel 2016-cı ildə Ordumuz düşməni ağır məğlubiyyətə uğradaraq Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2 min hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində mülki əhalinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə qayıdışı mümkün oldu. Bu kəndin sakinlərinin 23 illik fasilədən sonra doğma torpaqlarına qayıtması işğal altındakı digər ərazilərimizin də tezliklə azad olunacağına dərin inam yaratdı. İki il sonra 2018-ci ilin mayında Əlahiddə Ümümqoşun Ordu tərəfindən Naxçıvanın Günnüt kəndi və ətraf ərazilərin nəzarət altına alınması bir daha göstərdi ki, əsgər və zabitlərimiz qarşıya qoyulan istənilən vəzifəni yerinə yetirmək əzmindədirlər. 2020-ci ilin sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təcavüzə cavab olaraq Azərbaycan xalqı Ali Baş Komandan, Prezident İlham Əliyevin çağırışı ilə Vətən müharibəsinə qalxdı. Müzəffər Azərbaycan Ordusu hər anı qəhrəmanlıqlarla dolu 44 gün ərzində düşməni ağır məğlubiyyətə uğradaraq, ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyət sayəsində əldə olunmuşdur. 2023-cü ilin 19-20 sentyabrında keçirilmiş antiterror əməliyyatı nəticəsində torpaqlarımızda qalmış erməni tör-töküntüləri zərərsizləşdirilərək dövlət suverenliyimiz tam bərpa edildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində möhtəşəm yer tutur. Dövlət sərhədlərini bərpa etməklə Azərbaycan xalqı hərbi və diplomatik sahədə ən böyük zəfərə nail oldu. Qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışı təmin olunmalıdır. Bu Böyük Qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaqdır.

"Böyük Qayıdış" ərazi bütövlüyünü qazanmış və sürətlə inkişaf etməkdə davam edən müstəqil Azərbaycan Respublikasının tarixi uğuru, 30 il işğal altında qalmış və Ermənistan tərəfindən vəhşicəsinə dağıdılaraq xarabalığa çevrilmiş ərazilərin yenidən qurulması, həmin xarabalıqların üzərində yeni həyatın bərqərar edilməsi və cənab Prezident İlham Əliyevin 2003-cü ildən başlayaraq uğurla davam edən fəaliyyətinin, ölkəmizin iqtisadi-mədəni inkişafı və ərazi bütövlüyü uğrunda apardığı qətiyyətli mübarizənin nəticəsidir.

**Araz AĞAYEV,**
**Kiçik Pirəli kənd İƏD üzrə nümayəndə.**

# Qurban bayramı haqqında

"Qurban" sözü ərəb dilində Allahın rəhmətinə yaxınlaşma anlamına gəlir.

Qurban bayramı İbrahim və onun oğlu İsmayılın adı ilə adlansa da, əslində "Qurban" sözünə Adəmin dövründə oğlanları arasında baş verən hadisələrdə rast gəlinir.

Allah müqəddəs Quranda deyir - "Onlara Adəmin iki oğlunun gerçək əhvalatını oxu. O zaman ikisi də qurban vermiş, onların birindən qəbul edilmiş, digərindən isə qəbul edilməmişdi. Qurbanı qəbul olmayan oğlu öz qardaşına demişdi: "Səni hökmən öldürəcəyəm!" Qardaşı da ona belə demişdi: "Allah ancaq müttəqilərdən qurban qəbul edər" Maidə surəsi, 27-ci ayə.

Bu ayədən açıq aşkar görünür ki, ilk qurbanı Adəmin oğlanları Allah dərgahına aparmışlar. Sonradan bu adət halını alıb həqiqi mahiyyətindən çıxıb, müəyyən zaman ərzində vəhşi bir qanuna çevrilib. İnsanlar təsərrüfatından hər hansı bir şeyi (əkindən və ya heyvanlardan) qurban etmə əvəzinə öz övladlarını ilahələrə bütlərə qurban edirdilər.

İbrahim ə.s. zamanında isə bu ilahi nemət onun vasitəsi ilə, qarışıqlıq və bidətlərdən təmizlənərək əsl mahiyyətini tapır.

İbrahim və oğlu İsmayıl vasitəsi ilə Allah bu qanunu kamil olaraq yenidən öz gözəlliyinə qaytarır.

Sonradan Muhəmməd ə.s-ın peyğəmbərlik dövründə isə bu islamda Həcc mərasimində vacibat və müsəlmanlar arasında kütləvilik halını alır.

Qurban kəsmək yalnız Həcc mərasimini icra edən hacılara vacibdir. Məkkə şəhərindən kənar olan və Həcc mərasimində olmayan müsəlmanlara isə vacib deyil, ixtiyari hökmdədir.

Qurban kəsərkən bir neçə məsələyə diqqət vermək lazımdır.

"Qurani-Kərim"də hansı heyvanların qurban kəsilməsi ilə bağlı buyurulur: "Biz hər bir ümmət üçün qurbangah (yaxud məbəd) müəyyən etdik (və ya hər bir ümmətə qurban kəsməyi lazım bildik) ki, Allahın onlara ruzi verdiyi ənam (davarlar) cinsindən heyvanları kəsərkən Allahın adını çəksinlər (bismillah desinlər)" - Həcc surəsi 34-cü ayə.



Qurban bayramında kəsilən qurbanlar üç növə bölünür:

1. İbil (dəvə cinsi) 5 yaşı tamam olmalıdır.
2. Bəqər (inək və camış cinsləri) 1 yaşı tamam olmalıdır.
3. Qoyun (qoyun və keçi cinsləri) 6 və ya 7 ayı tamam olmalıdır.

Qurbanı fərdi və ya müştərək qaydada da kəsmək olar. Daha yaxşı olar ki, xırda buynuzlu heyvan fərdi qaydada, iri buynuzlu heyvan isə müştərək qaydada kəsilsin. Müştərək qaydada kəsilən qurbanlıqda və bölünməsində müsəlmanlar şəriət prinsiplərindən kənar çıxmamalıdırlar.

Qurbanlıq üçün kəsilən heyvanın zahiri əlamətlərini bildirən məsələlər də İslamda öz əksini tapmışdır. Qurbanlıq heyvan hər şeydən öncə sağlam və nöqsansız olmalıdır. Kor, şikəst, axtalanmış, buynuzu qırılmış və ya hər hansı bədən üzvündə eybi olan heyvanı qurban kəsmək olmaz. Xəstə və ya qocalıb əldən düşmüş heyvanı da qurban kəsmək islami-əxlaqi cəhətdən icazəli deyil.

Qurbanlıq heyvanın erkək olması daha bəyənilir, amma dişi olsa da olar.

Qurbanlıq üzü qibləyə kəsilməli və kəsənin müsəlman olması vacibdir.

Yaxşı olar ki, bayram namazı qılınandan sonra Qurban kəsilsin.

Qurbanı kəsəndən sonra onun ətinin bölünməsi məsələsi də şəriət qanunlarına uyğun olmalıdır.

Peyğəmbər ə.s. və məsum imamlardan gələn hədislərə görə, qurbanlıq əti 3 hissəyə bölünməlidir.

1. Qurban kəsənin ailə üzvlərinin payı;
2. Ona "sileyi-rəhm" yəni qohum əqrəbadan olan ehtiyacılaırın payı;
3. Ona qohum olmayan qonşu və ətrafdan olan ehtiyaclı müsəmanın payı.

Bu bayramın əsas məqsədi heyvan kəsib ətindən yemək deyil. Uca Allah bu bayramın mahiyyətinə işarət edərək buyurur:

"Onların nə əti, nə də qanı, Allaha çatmaz. Ona yalnız sizin təqvanız çatar. Sizi doğru yola yönəltdiyinə görə, Onu uca tutasınız deyə, bu (heyvanları) sizə beləcə ram etdi. (Sən isə) yaxşılıq edənləri müjdələ!" - Həcc surəsi 37-ci ayə.

Bu il müqəddəs Qurban bayramı Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurasının verdiyi fətvaya uyğun olaraq 16 və 17 iyunda qeyd edilmişdir.

Allah kəsilən qurbanları, edilən ibadət və duaları qəbul etsin.